Anım duyğuları

# Mir Cəlal: Milli maraqları manifestləşdirən ədib

**Böyük yazıçı, müəllim, alim kimi 3 zirvənin fatehi Mir Cəlal kiçik hekayələr ustadı, ciddi roman və povestlər müəllifi, ədəbi irsi aforizmlərlə, atalar sözləri ilə zəngin mütəfəkkir alim, fikir və düşüncə sahibi kimi tanınır.**

Mir Cəlalın taleyinə təlatümlərlə dolu 20-ci yüzil düşmüşdü. İnqilabları, repressiya və müharibələri çevrələyən bu zaman kəsiyi hər bir ciddi qələm sahibinin imtahanı idi. Ondan üzüağ çıxmaq üçün isə Mir Cəlal təmizliyi və əyilməzliyi gərəkdi. Vaxtın, zamanın fövqünə qalxmaq, onu millətinin nəfinə işlətmək üçün mənindəki mənə tapınmaq, quruluşun, zamanın üstünə yerimək o qədər də asan deyildi. Mühiti, şəxsiyyəti, irsi və varisləri ilə bu gün də nümunəyə çevrilən Mir Cəlal dövrdaşlarından fərqli olaraq, qələmlə kəlamın vəhdətində oxucusuna tarixin ən mühüm suallarını ünvanlayıb. Ədəbiyyatı partiyanın təkərciyi, vintciyi hesab edən "yazarların" təntənəli kitab adlarının içərisində əsərlərinə kitablarının özü qədər əzəmətli adlar seçib Mir Cəlal. "Ad insanı bəzəmir, insan adı bəzəyir" hikmətinin fərqli biçimdə təqdimatını edib. Şura hökümətinin qılıncının dalının, qabağının kəsdiyi illərdə "Dirilən adam", "Yolumuz hayanadır?", "Bir gəncin manifesti", "İnsanlıq fəlsəfəsi", "Səviyyə axtarışında", "Füzuli sənətkarlığı", "Azərbaycanda ədəbi məktəblər" kimi fundamental əsərləri ilə min illər boyu dünyanın maddi-mədəni irsi siyahısını incilərlə zənginləşdirən Odlar yurdu Azərbaycanın sıxıldığı mənqənənin aynasına dönüb.

"Kölgədə bitən ağacın kölgəsi olmaz", "Gərək elə yazasan ki, ya yazdıqlarına, ya da ünvan seçdiklərinə görə xatırlanasan", "ən böyük nailiyyətim ailəm, ən qiymətli əsərim övladlarımdır" kimi kəlamları ilə dəyərlərin əyarına çevrilən Mir Cəlalın milli mənlik, milli kimlik uğrunda mücadilədə mücahid dastanını yazan hər bir vətənpərvər insan üçün örnəyə çevrilən bir kəlamı da var: "İtə ataram, yada satmaram!"

1926-cı ildə təşkil olunan Türkoloji Qurultaydan sonra yasaq olunan, üst səviyyələrdə kargüzarlıq işləri özgə dildə aparılan, əlifbası dəyişdirilən bir millət tarixi sual qarşısında qalmışdı. O sualı "yuxarılara" ünvanlamağa isə professor Nəsir İmanquliyev kimi az adamların cəsarəti çatırdı. Yazıçı kimi bu məsuliyyəti öz üzərinə unudulmaz Mir Cəlal aldı. Boy-buxunu xartutu, palıd ağacını xatırladan, qalan deyil, qalın kitabların müəllifi olan məşhur yazıçıların sırasında Mir Cəlal batini əzəməti ilə fərqli göründü. "Leninləşir bütün bəşər, bütün ellər, qəbilələr", "Oxuma tar, səni sevmir proletar!" deyənlərin önünə çıxdı. "Yolumuz hayanadır?" əsəri ilə onlara və onların arxasında duranlara sərt "Osmanlı tokatı" vurdu. "Kölgədə bitən ağacın kölgəsi olmaz!" nidası ilə hilallı, ulduzlu bayrağın qurucularına poetik nümunələrlə həqarət edənlərə tarix dərsi verdi. 1991-ci ildə Azərbaycanda Müstəqillik Aktı qəbul ediləndə yazıçı böyüklüyünün əzəməti özünü bürüzə verdi.

Bir yazıçı kimi Mir Cəlalın təmtəraqlı adı, orden və medalları olmayıb, amma Mir Cəlal adı, imzası özü bir etalon olub. "Bir gəncin manifesti"ndə "Yazıçının manifesti"ni yaradan Mir Cəlal iki tarixi kəlam işlədib. Onun biri və birincisi əsərin başladığı məqamdır. Mərdan kəli sürür, öküz xışı çəkib apara bilmir, gün gəlib günortaya çatıb. Öküzü də, rəncbəri də tər aparıb. Rəncbər öküzün qabağında durub buynuzlarından tutub deyir: "Sür, sür, ay Allahın heyvanı! İndi mən nə edim, bunun ağzına söyüm? Axı söyə bilmərəm, Allah deyir!". Bu fikir ədəbiyyata gətiriləndə 30-cu illər idi. Məscidlər klublara, mədəniyyət evlərinə çevirilir, ciblərə "Allahsız knişkası" qoyulurdu. Azərbaycanda ateizmin aynası olan "Allahsız" jurnalı və qəzeti nəşr edilir. Yazıçı Mir Cəlal vətəndaş Mir Cəlalın da, türk və islam mədəniyyətini çevrələyən, o zamanlar SSRİ-yə aid olan dövlətlərin və xalqların da haqq səsinə dönür, "axı bunun ağzına söyə bilmərəm, Allah deyir!"

Allah kəlamının yasaq olunduğu, panislamizmin, pantürkizmin meydan suladığı bir dövrdə bu cümləni ədəbiyyata gətirmək Allahı inkar edənləri inkarın özü idi. Mir Cəlal bunu edirdi, çünki o bu dünyaya, ədəbi, elmi-mədəni mühitə, pedaqoji fikir tarixinə həqiqəti inkar edənləri, haqqı dananları inkar üçün gəlmişdi. O doğuluşdan paralanmış, yaralanmış Azərbaycanın haqq səsi olaraq var olmuşdu. Taleyin sərt üzündən özü öz tarixi torpaqları ilə həmsərhəd olan Azərbaycanın iri və paytaxt şəhərləri Təbriz və Bakı onun ömründən keçirdi. "Bir gəncin manifesti"ndə Azərbaycan anasının gələcəyə ünvanlanan sevgi məktubunun Azərbaycan xalısının "Yusif və Züleyxa" dastanını yaradan Mir Cəlal Sonanın dili ilə ingilis zabitinə sərt şillə vurur: "İtə ataram, yada satmaram".

Fərəhli haldır ki, bu gün Azərbaycan xalısı Mir Cəlalın sevimli nəvəsinin – ölkənin Birinci vitse-prezdenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın iradəsi ilə dünyanın maddi-mədəni irsi siyahısına yazılıb. Mir Cəlalın gözünün nuru akademik Arif Paşayev Milli Aviasya Akademiyasının qurucusu kimi Uçan xalçanın Arifanə dünyasını yaşayır. Milli aviator kadrlarımız səmamızın şahini kimi həm də Qarabağda, Şərqi Zəngəzurda cövlan edir.

Mir Cəlal mühitin fövqündə dayanan şəxsiyyəti, irsi və varisləri ilə milli məfkurədən milli dövlətçiliyə yol gələnlərin ilham mənbəyinə çevrilib. Bu gün fizika və texnika sahəsində dünyada məşhur olan akademik Arif Mir Cəlal oğlu Paşayevi təkcə elmi məktəbi olan böyük müəllim kimi deyil, həm də ixtira və nəzəriyyələri ilə elmin ümumbəşəri dəyərlər xəzinəsini zənginləşdirən, mütəfəkkir alim kimi etirafda bulunurlar.

Nüfuzlu diplomat, fövqəladə və səlahiyyətli səfir, ADA Universitetinin qurucusu və rektoru, professor Hafiz Mir Cəlal oğlu Paşayev analitik təfəkkürü, ensiklopedik biliyi, genetik kodlardan gələn ziyalı müqəddəsliyi ilə təkcə Azərbaycanın deyil, Güney Qafqazın elm və təhsil tarixini yenidən yazan, yüksək texnologiyaları, ümumbəşəri standartları elm və təhsil sisteminə tətbiq edən mütəfəkkir alim, elmin diplomatiyadakı nüfuzu kimi dəyərlərin əyarına çevrilib.

Moskva Dövlət Universiteti Bakı filialının rektoru, AMEA-nın vitse-prezidenti, akademik Nərgiz Paşayeva ilə təkcə ölkəmizdə deyil, Avropanın bir çox ölkələrində də ilklərə imza atmış alim, nüfuzlu ictimai xadim kimi iki və çoxtərəfli dialoqlar aparılır, beynəlxalq humanitar forum və konfransların, dəyirmi masaların təşkili üçün məsləhətləşmələr edilir. Heydər Əliyev Fondunun beynəlxalq səviyyədə gerçəkləşdirdiyi genişmiqyaslı layihələrin icrasının məsuliyyətinin böyük bir qismini alim kimi üzərinə alan akademik Nərgiz Paşayeva bununla həm də anası, ərəb-məhcər ədəbiyyatının ilk qadın tədqiqatçısı, AMEA-nın Şərqşünaslıq İnstitutunun ilk qadın direktoru, ərəb filologiyası üzrə dünyada məşhur alim Aida İmanquliyevanın ənənələrini yaşadır, yarımçıq arzularını gerçəyə çevirir.

Adı pedaqoji fikr tariximizə yazılan pedaqoq Mir Cəlalın müəllim müqəddəsliyi missiyasını iki istəkli varisi – Elmira xanım Paşayeva və Ədibə xanım Paşayeva fəaliyyətində davam etdirirlər. Bakı Dövlət Universitetinin auditoryalarında mühazirələr oxuyan Ədibə xanım həm də, böyük ədibin cisminin və ruhunun davamçısı olaraq ustad-şagird müqəddəsliyini yaşadır. Mir Cəlalın vətənpərvərlik ruhu, insan sevgisi, ədəbi-mədəni irsə sədaqət hissi Heydər Əliyev Fondunun vitse-prezidenti, "Bakı" jurnalının qurucusu Leyla Əliyevanın, Bakı Media Mərkəzinin təsisçisi Arzu Əliyevanın, Heydər Əliyev Fondunun Amerika bürosunun rəhbəri Cəmilə Paşayevanın, YARAT Müasir İncəsənət Məkanının rəhbəri Aida Mahmudovanın, "Nərgiz" jurnalının baş redaktoru Ülviyyə Mahmudovanın fəaliyyətində mənəvi bağlarla davam edir. Mir Cəlalın xeyirxahlıq, yaxşılıq dolu dünyasını isə unudulmaz Aqil Mir Cəlal oğlu Paşayevdən sonra bu gün Mir Cəlal və Mir Camal Paşayevlər genetik kodlardan gələn müqəddəsliklə nəsildən nəslə ötürürlər.





**Şəkildə (soldan sağa) İrəvan Pedaqoji İnstitutunun Azərbaycan bölməsinin rektoru Əkbər İrəvanlı, Püstə xanım Paşayeva və Mir Cəlal Paşayev.**



**Şəkildə professor Mir Cəlal Paşayev sıx əməkdaşlıq etdiyi Qərbi Azərbaycan ziyalıları arasında.**

Mir Cəlal bu dünyaya üç zirvənin fatehi kimi könüllərdə köç əyləməyə gəlmişdi. Ruhunu, duyğusunu, sevgilərini Şeyx Cəmaləddin Əfqani kimi doğmalarının və yetirmələrinin beyinlərinin şırımlarına dən kimi səpmişdi. Həmin müqəddəs dəndən cücərib dirçələn, 44 günlük tarixi savaşdan, Vətən müharibəsindən sonra Ali Baş Komandan, Prezident İlham Əliyevin, qüdrətli Azərbaycan Ordusunun iradəsi ilə Şuşa qalasında, Xüdafərin körpüsündə Bayrağa dönən Millət "kölgədə bitən ağacın kölgəsi olmaz", Vətən torpağının bir qarışını da yağıya, "yada satmaram!" nidası ilə tarix yaratdı. Dünyanın siyasi mənzərəsini, mizanını, düşüncəsini dəyişdi. Qarabağın, Şərqi Zəngəzurun, əslində isə "Kürəkçay"dan, "Gülüstan"dan, "Türkmənçay"dan sonra ikiyə bölünüb paralanmış Məmləkətin, o taylı-bu taylı Azərbaycanın, Təbrizə, Dərbəndə, Borçalıya, İrəvana, Zəngəzura bölünən Odlar yurdunun Fətih dastanını yazdı! "Ən böyük nailiyyətim ailəm, ən qiymətli əsərim övladlarımdır!" nidası ilə qələm çalan, "Güney Azərbaycan missiyası"nın rəhbəri, dağlar diyarı Dağıstanın, Dəmir qapı Dərbəndin xilaskarı kimi 1941–1945-ci illər müharibəsində tarix yaradan polkovnik komissar Əziz Əliyevin nəvələri, müasir Azərbaycanın memarı general Heydər Əliyevin varisləri bütün dünyaya sübut etdilər ki, burada, Güney Qafqazda qüdrətli bir dövlət, qüdrətli bir xalq var. Ona təkcə bioresurslarına görə deyil, nüfuzlu dövlət xadimlərinə, sərkərdə-xaqanlarına, fikir və düşüncə sahiblərinə, Mir Cəlal kimi vaxtdan, zamandan uca durub vaxtı, zamanı millətinin nəfinə işlədən mütəfəkkir şair və yazıçılara görə dəyər vermək gərəkdir!

20-ci yüzilin əvvəlində Mir Cəlal zamanın, quruluşun üstünə yeridi. "Dirilən adam"a "Yolumuz hayanadır?" sualını verdi. "Bir gəncin manifesti" ilə "Yazıçı manifesti"ni, daha doğrusu, mənsub olduğu millətin mənlik və kimlik manifestini yaratdı! "Kölgədə bitən ağacın kölgəsi olmaz!" deyib milləti, məmləkəti oyanışa, qurtuluşa səslədi. "20 yanvar", "Xocalı" dəhşətlərini yaşayan Azərbaycan xalqı Şuşa qalasında, Xüdafərin körpüsündə, Murovdağın zirvəsində, Ağoğlan qəsrində Bayrağa dönən gün Qılıncla Qələmin vəhdətində dövlətlər quran, paralanmış, yaralanmış Azərbaycanın əzəmətini dünyaya sübut etdi. O gün "Ata vəsiyyəti"nə əməl olunan gün idi. O gün həm də narahat ruhların şad olan günü idi. O sırada unudulmaz Mir Cəlalın, sevgili Püstə xanımın, soyu, soy-kökü, şəcərə dəftəri ilə Qarabağın xanlıq səltənətinə, Köçərli və Mirmövsüm Nəvvab müqəddəsliyinə bağlı Gözəl nənənin ruhu da var idi.

Firudin bəy Köçərli deyirdi: "Bir millətin varını, dövlətini, sərvətini əlindən alarsan, məhv olmaz, dilini alarsan, tərk olub gedər!" Məhz Mir Cəlal dilimizi, millətimizi qoruyanların, qeyrətimizi çəkənlərin sırasında yer alanlardan, taxtını, səltənətini könüllərdə quranlardan idi.

Ulu öndər Heydər Əliyev sıradan bir dövlət xadimi deyildi, bu ölkədə kimin, xüsusən də hansı fikir və düşüncə sahibinin, şair və yazıçının nə ilə nəfəs aldığını bilirdi. Canından əziz bildiyi Azərbaycanın sarayına Sultanı, ölkəsinə Birinci xanımı, nəvələrinə Nənəni, varislərinə Ananı seçəndə, şübhəsiz ki, Övlad məhəbbəti ilə yanaşı, Nəsir İmanquliyev əyilməzliyini, Mir Cəlal təmizliyini, professor Aida İmanquliyevanın, akademik Arif Mir Cəlal oğlu Paşayevin alim müqəddəsliyini də nəzərə almışdı!

Qalın deyil, qalan kitabların müəllifi Mir Cəlal bu dünyaya mənsub olduğu millətin Əbədiyyət dastanını yazmağa gələnlərdən idi. Gəldi, yazdı, bütövlüyün, birliyin, diriliyin şərbətini içirib getdi! Sentyabrın 28-i böyük ədibin, unudulmaz şəxsiyyətin xatırlanan günüdür. Məqamı uca, məkanı cənnət olsun!

*Şərəf CƏLİLLİ*

***Fotolar SSRİ Xalq müəllimi İbrahim Həsənovun arxivindən götürülüb.***